e,

,

,

## Mehman Rəsulov

**Qadınlar**

Nə olar bir qadın küssə incisə
İlbiz də ağlayır qının içində
Şimşək damarımı kəsib doğrayır
Günəşin dan yeri qanın içində.

Küləyin çiynində buludlar gedir
Ulduzlar soruşur ölü yerini
Səhər əllərinə xına çəkənlər
Axşama doğrayır biləklərini.

Küçələrə qadın saçı tökülür
Taxma dişlər daraqlayır havanı,
Səhər yola su daşıyır gözlərim
Axşam qucaqlayıb yatır tavanı.

Yuxumdan bir gedən, bir də qayıtmır
Yazıram, yozuram tərsi düz gəlir,
Çox ürək boşaltma qələm içindən
Vərəqə axırda təkcə söz gəlir.